**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**037/288

**Bakı şəhəri** **"**24**"** avqust **2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu quş xəstəliyindən qorunması məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlərin aradan qaldırılması haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2021-2023-cü illər üzrə rəsmi məlumatlarına əsasən, Polşa Respublikasının Lodz (Lodzkie), Opolsk (Opolskie), Kuyavsk-Pomorsk (Kujawsko-Pomorskie), Varminsk-Mazursk (Warminsko-Mazurskie), Mazoviesk (Mazowieckie), Lyubelinsk (Lubelskie), Pomorsk (Pomorskie), Slask (Sląskie), Velikopolsk (Wielkopolskie) və Malopolsk (Malopolskie) inzibati ərazilərində qeydə alınmış yüksək patogen quş qripi (YPQQ) xəstəliyi aradan qaldırılıb.

Belə ki, aradan qaldırılmış YPQQ xəstəliyinə görə, ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və xəstəlik baş vermiş ərazilərdə epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar, respublika ərazisinin həmin yoluxucu xəstəlikdən qorunmasına dair Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) müvafiq qərarları ilə adıçəkilən ölkənin sadalanan inzibati ərazilərinə tətbiq edilmiş məhdudiyyətlərin aradan qaldırılması məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin rəsmi məlumatı və "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi" nəzərə alınaraq, YPQQ xəstəliyinin baş verməsinə görə sözügedən ölkənin qeyd olunan inzibati ərazilərinə Agentliyin müvafiq qərarları ilə tətbiq edilmiş aşağıdakı məhdudiyyətlər aradan qaldırılsın:

**1.1.** 2021-ci il 6 dekabr tarixli 073/168 nömrəli qərarla Polşa Respublikasının Lodz inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

**1.2.** 2022-ci il 13 dekabr tarixli 072/247 nömrəli qərarla Polşa Respublikasının Opolsk inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

**1.3.** 2022-ci il 26 dekabr tarixli 074/249 nömrəli qərarla Polşa Respublikasının Kuyavsk-Pomorsk, Varminsk-Mazursk, Mazoviesk və Lyubelinsk inzibati ərazilərinə tətbiq edilmiş məhdudiyyət;

**1.4.** 2022-ci il 30 dekabr tarixli 076/251 nömrəli qərarla Polşa Respublikasının Pomorsk inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

**1.5.** 2023-cü il 28 fevral tarixli 010/261 nömrəli qərarla Polşa Respublikasının Slask inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

**1.6.** 2023-cü il 4 may tarixli 018/269 nömrəli qərarla Polşa Respublikasının Velikopolsk inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət;

**1.7.** 2023-cü il 6 iyul tarixli 031/282 nömrəli qərarla Polşa Respublikasının Malopolsk inzibati ərazisinə tətbiq edilmiş məhdudiyyət.

**2.** Bu Qərarın 1-ci bəndinin icrasının təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə məlumat verilsin.

**3.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**4.** Bu Qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti orqanlara göndərilməsi təmin edilsin.

**5.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi • Food Safety Agency of the Republic of Azerbaijan •
Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer